

AzerTech
Service



# Şirkət haqqında

AZERTECH SERVICE – Avtomobillərin təmiri və texniki xidmətlərin həyata keçirilməsi  üçün lazım olan bütün professional avadanlıqlarla təmin olunmuş, müasir tələblərə cavab verən universal avtoservisdir. Görülən işlərin yüksək ixtisaslı personal tərəfindən aparılması göstərilən xidmətin zəmanətidir.

Tətbiq olunmuş interaktiv qəbul sistemi - avtomobilə baxış keçirilməsində, optimal qiymət və təmir vaxtının müzakirəsində  müştərinin iştirakını təmin edir. Mütəxəssislərimiz  tərəfindən avtomobilin nasazlığı qısa müddətdə müəyyən edilir,  müştəri ilə konsultasiya zamanı avtomobilin təmiri üçün ən optimal variant təklif olunur və operativ şəkildə aradan qaldırılır.



Həmçinin avtomobilin təmiri zamanı müştərilərin komfortu üçün nəzərdə tutulmuş gözləmə salonunda qonaqlarımıza isti içkilər təklif olunur. Müştəri məmnuniyyətini əsas prioritet tutan AZERTECH SERVICE peşəkar kollektiv və müasir texniki avadanlıqların köməyilə üzərinə düşən vəzifənin öhdəsindən tez və keyfiyyətli şəkildə gəlir.



AZERTECH Service müxtəlif markalı müasir avtomobillərin təmiri və texniki xidməti ilə bağlı bütün mümkün xidmətləri göstərir:

- Avtomobillərin elektron sisteminin kompüter diaqnostikası
- Çilingər işləri və mühərrik təmiri
- Təkərlərin bucaq tənzimlənməsi/ balans/ təkər montajı
- Kondisionerlərin diaqnostikası
- Faraların tənzimlənməsi
- BAN (gövdə) hissənin təmiri (dəmirçi işləri)
- Rəngsaz işləri
- Armatur işləri
- Pardaxlama (polirovka)
- Kimyəvi təmizləmə
- Yuyucu
- Digər müxtəlif işlər





# Avtomobillərin elektron sisteminin kompüter diaqnostikası

Əksər avtomobilçilər avtoservislərə nasazlıq məlum olduqda və ya problem yarandıqda müraciət edirlər. Mütəxəssislər müntəzəm olaraq avtomobili diaqnostika etməyi məsləhət görürlər ki, bu da yarana biləcək nasazlığın profilaktik olaraq qarşısını almağa şərait yaradır. AZERTECH SERVICE kompleks diaqnostika; həmçinin avtomobilin elektron sistemlərinin ayrı-ayrılıqda daxili kompüter diaqnostikasını aparır. Bütün işlər aparıcı dünya markalarının istehsalı olan müasir elektron avadanlıqlarla peşəkarlar tərəfindən aparılır.









# Çilingər işləri və mühərrik təmiri




AZERTECH SERVICE coxfunksiyalı mexaniki bölməyə malikdir: mühərrik təmiri, işlək hissənin təmiri, ehtiyat hissələrinin dəyişməsi, diaqnostika, yağdəyişmə və s. Qeyd etmək lazımdır ki, AZERTECH SERVICE tam avtomatlaşmış pompa tipli yağdəyişmə sisteminə malikdir ki, bu da prosesin daha operativ və funksional olmasına xidmət edir. Mexaniki şöbə RAVAGLİOLİ, RAASM, STAHLWILLE, FORCE, FORSAGE kimi aparıcı istehsalçı şirkətlərin məhsulu olan professional avadanlıq və alətlərlə təchiz olunub. Müştərinin istəyinə əsasən bu şöbədə avtomobilə istənilən əlavə avadanlıq quraşdırmaq mümkündür.

**Daha effektli nəticə əldə etmək üçün mühərrik təmiri xüsusi ayrılmış otaqda aparılır.**

# Təkərlərin bucaq tənzimlənməsi balans / təkər montajı



Avtomobil sahibləri tez-tez avtomobilin idarə olunmasının pozulması və təkərlərin israfı ilə üzləşirlər. Bu problemin səbəbləri adətən təkərlərin bucaq pozulması və təkər çəpliyi ilə əlaqədar olur. AZERTECH SERVICE müştərilərə bu məsələlərlə əlaqədar hərtərəfli xidmətini təklif edir. Yüksək keyfiyyətli XD kameralı 3D ölçü sistemli Hofmann Geoliner stendinin verdiyi dəqiq nəticələrlə bu problemlər aradan qaldırılır.







Pro 42 Gold program təminatı avtomobil istehsalçılarının son 25 ildəki məlumatlarını tam və aktual şəkildə almağa imkan verir. Həmçinin bu şöbədə təkərlərin ideal lazer balansı və təkər montajı həyata keçirilir. Rəqəmsal Ravaglioli G 3.140R balans stendi bütün parametrləri avtomatik təyin edir.



# Kondisionerlərin diaqnostikası

Hər bir sürücü kondisionerin isti aylarda yaratdığı komfortu və əvəzedilməzliyini təsdiqləyə bilər. Kondisionerlərin uzunömürlü və həmişə işlək vəziyyətdə olması üçün AZERTECH SERVICE havalandırma borularının xüsusi maddələrlə təmizləməsi (bu maddələr həmçinin dezinfeksiyaedici xüsusiyyətə malikdir), filterlərin müntəzəm dəyişməsi, maye-qaz (freon) əlavə etmə (avadanlıq BOSCH şirkətinin istehsalıdır) xidmətlərini avtomobil sahiblərinə təqdim edir.





# Faraların tənzimlənməsi



Xüsusi avadanlıq vasitəsilə ön işığın istər şaquli, istərsə üfüqi istiqamətdə düşmə bucağının tənzimlənməsi faraların həmişə tonusda qalmasına xidmət edir. AZERTECH SERVICE avtomobil sahiblərini bu xidmətdən də istifadə etməyə dəvət edir.



# BAN (gövdə) hissənin təmiri (dəmirçi işləri)




AZERTECH Service müştərilərə avtomobilin BAN (gövdə) hissəsinin qəzadan sonrakı və ya istifadə müddətində yaranan zədələrin təmirini və konsultasiyasını təklif edir. Mütəxəssislərimiz kiçik batıqlardan başlamış, avtomobilin gövdə hissəsinin tam geometrik formalarının bərpasına qədər istənilən çətinlikdə məsələni aradan qaldıra bilirlər. Bu şöbənin BLACKHAWK, TELWIN, CEMONT kimi aparıcı istehsalçı şirkətlərin məhsulu olan texniki avadanlıqlarla təchiz olunması bütün işləri yüksək keyfiyyətlə aparmağa imkan verir.




Xüsusilə qeyd etmək lazımdır ki, AZERTECH Service avtomobil istehsalı zamanı istifadə olunan Punta qaynaq aparatına da (VAS 821 101) sahibdir ki, bu da qaynaq işlərinin zavod keyfiyyəti ilə aparılmasına imkan verir.

# Rəngsaz işləri
# Armatur işləri
# Pardaxlama (polirovka)





Rəngsaz işləri üzrə böyük təcrübəyə malik AZERTECH SERVICE istənilən boyama prosesini həyata keçirmək potensialındadır. Müasir avadanlıq və ləvazimatlar istər ayrı-ayrı detalların, istərsə də bütövlükdə avtomobilin keyfiyyətli boyanmasına  imkan verir. Servisin texniki parkına FİRAT və SATA kimi şirkətlərin istehsalı olan boyama kamerası və ləvazimatları daxildir. Çoxfunksiyalı kamera minik avtomobillərindən başlamış, mikroavtobusların boyanmasına qədər geniş potensiala malikdir. SPİESHECKER, 3M, STANDOX kimi şirkətlərin boya və gündəlik istifadə materiallarından istifadə olunur.

Müştəri məmnuniyyətini nəzərə alaraq, geniş rəng palitrasına malik kataloqdan seçilmiş boya nümunələri kompüter vasitəsilə hazırlanaraq müştəriyə təqdim olunur ki,  bu da, avtomobil üçün zövq baxımından ən uyğun rəngin seçilməsinə xidmət edir. Bundan əlavə, AZERTECH SERVICE həmçinin armatur işləri də həyata keçirir. Bu səbəbdən, hər hansı detalın ayrıca boyanmasına ehtiyac yarandığı halda, detal sökülüb, boyama prosesindən keçərək yenidən montaj edilə bilər.





# Yuyucu
# Kimyəvi təmizləmə

Avtomobilin yuyulması sadə göründüyü qədər, məsuliyyət tələb edən sahədir. AZERTECH SERVICE tərəfindən istifadə olunan peşəkar yuyucu vasitələr avtomobilə xüsusi təravət verməklə yanaşı, boya ömrünü də uzadır.

Yuyucu bölməsində həm də mühərrik hissənin yuyulması və salonun kimyəvi təmizlənməsi həyata keçirilir.











# Digər müxtəlif işlər




Yuxarıda sadalanan işlərdən əlavə AZERTECH SERVICE iş siyahısına avtosiqnalizasiyalar, blokiratorlar, video qeydiyyat cihazının quraşdırılması, elektron şüşə qaldırıcılar, partroniklər, audio sistemlər, ksenon lampalar, BAN (gövdə) hissəyə əlavə detalların quraşdırılması, şüşələrin dəyişməsi, salon səslərinin qarşınının alınması və b. daxil edir. Servis həmçinin bu xidmətlərlə əlaqədar uyğun ehtiyat hissəsinin sifarişini tez və sərfəli şəkildə həyata keçirir.









# ƏLAQƏ

**Ünvan**

Keşlə qəs. Yenikənd küç. 11

**Telefon**

+994125666099

**Mobil**

+994503036030

**E-mail**

office@azertechservice.az

**Sayt**

www.azertechservice.az